Tarix və onun problemləri, № 2 2014

**RAMIL AĞAYEV**
***AMEA A.Bakıxanov adına Tarix İnstitutu***
***"Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin***
***böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***
***E-mail: TarixVeOnunProblemleri@gmail.com***

# İBN HÖVQƏLIN "KITAB SURƏT ƏL-ARD" ƏSƏRI XƏZƏRLƏR HAQQINDA

*Açar sözlər:* Xəzər xaqanlığı, İtil, Səməndər, Dərbənd, ticarət əlaqələri
*Ключевые слова:* Хазарский каганат, Итиль, Самандар, Дербент, торговые связи
*Key words: The* Khazar khaganate, Itil, Samandar, Derbend, trade relations

Xəzər xaqanlığının tarixi Azərbaycan xalqının erkən orta əsrlər taixi ilə sıx şə-kildə bağlıdır. Belə ki, xəzərlər Azərbaycan türklərinin etnogenezi prosesində ya-xından iştirak etmişlər. Hətta "Xəzər" məfhumunun özünün dilimizdəki "gəzər" sözü ilə bağlılığını ehtimal etmək olar. Məhz buna görə də xəzərlərin tarixinin dərindən araşdırılması mühüm əhəmiyyət kəsb edir və Azərbaycanın VII-X əsrlər tarixinin tədqiqi sahəsindəki müəyyən boşluqları doldurmağa imkan verir.

Məlum olduğu kimi, bu dövrün öyrənilməsi üçün geniş mənbəşünaslıq bazası mövcuddur. Xəzərlərin tarixini araşdırmağa imkan verən mənbələr, əsasən, ərəb və yəhudi mənbələridir.

Xəzər xaqanlığının VII-IX əsrlər tarixinin müxtəlif məsələlərinin öyrənilməsi üçün ərəb dilində yazılmış tarixi və coğrafi əsərlərin müstəsna əhəmiyyəti vardır. Əbülqasim Məhəmməd ibn Hövqəlin "Kitab surət al-ard" ("Yerin təsviri kitabı") əsəri belə qaynaqlardan biridir. Həmin əsər elm aləmində "Kitab əl-məsalik va-l-məmalik" ("Yollar və məmləkətlər kitabı") adı ilə də məşhurdur.

Ərəb Xilafətində tarixi və coğrafi əsərlərə böyük maraq, böyük imperiyanı idarə etmək üçün tələb olunan əməli biliklərə artan ehtiyacdan yaranmışdı.

İbn Hövqəl Yaxın və Orta Şərq ölkələrinə səyahət edərkən Azərbaycanda və ona qonşu olan bir sıra ölkələrdə də olmuş, şəxsi müşahidələrini qələmə almışdır. İbn Hövqəl səyahətinə 331/945-ci ildə başlamış və onu 367/977-ci ildə tamamlamışdır. İbn Hövqəl 340/950-ci ildə öz sələfi Əl-İstəxri ilə görüşmüş və onun "Kitab məsalik əl-məmalik" ("Dövlətlərin yolları haqqında kitab") əsərini redaktə edərək öz məlumatlarını da buraya əlavə etmişdir (1, 21-22; 2, 5-6; 3, 103; 4, 101).

İbn Hövqəlin əsəri "ərəb coğrafiya ədəbiyyatının zirvəsini təşkil edir" (4, 101).

İbn Hövqəlin əsərinin iki mükəmməl nəşri məlumdur. Əsərin tam nəşrlərindən əlavə onun 1800-cü ildə Londonda V. Quseley tərəfindən ingilis dilinə, 1842-ci ildə De Slane tərəfindən, 1845-ci ildə isə M. Amari tərəfindən fransız dilinə tərcümə olunmuş natamam nəşrləri də məlumdur (4, 102). Əsərin ikinci hissəsi fars dilinə tərcümə olunmuş və Tehranda çap olunmuşdur (5).

Bu əsərin ikinci hissəsindən Mavərənnəhr və Mərkəzi Asiya türkləri ilə bağlı olan məlumatlar türk dilinə tərcümə olunmuşdur (6, 162-173).

İbn Hövqəlin bu əsəri Azərbaycan tarix elmində xüsusi tədqiqat obyekti olmamışdır. Lakin bir sıra Azərbaycan tarixçiləri və şərqşünasları öz tədqiqatlarında digər ərəb coğrafiyaçılarının əsərləri ilə yanaşı, İbn Hövqəlin əsərinə də müraciət etmiş və onun

əhəmiyyətini xüsusi olaraq qeyd etmişlər. Belə tədqiqatlar sırasında ilk növbədə Z. M. Bünyadovun (1; 7), M. X. Şəriflinin (2), S. B. Aşurbəylinin (8), N. M. Vəlixanlının (3; 9; 10; 11; 12,) əsərlərini xüsusilə, qeyd etmək lazımdır. Azərbaycan tarixi ilə bağlı olan bir sıra ümumiləşdirici kitablarda da İbn Hövəlin verdiyi məlumatlardan istifadə edilmişdir (13). Bu əsər bir sıra ölkələrin tarixçiləri tərəfindən də araşdırılşmış, bu və ya digər şəkildə tədqiqata cəlb olunmuşdur (14; 15; 16; 17; 18; 19 ). Əsərin Azərbaycan tarixi ilə bağlı olan mühüm hissələri de Quyenin Leyden nəşri əsas götürülməklə, N. A. Karaulov tərəfindən rus dilinə (15), N. M. Vəlixanlı tərəfindən isə Azərbaycan dilinə tərcümə olunmuşdur (3).

Tədqiat zamanı digər mənbələrin, eləcə də bu və ya digər şəkildə ərəb müəlliflərinin əsərlərindən istifadə edən və yaxud müəyyən tərcümələr həyata keçirən təd-qiqatçıların əsərlərinə də müraciət edilmiş, müqayisələr aparılmışdır (20; 21; 22; 23; 24; 25; 26; 27; 28 ).

İbn Hövqəlin əsəri 2 hissədən ibarətdir. Əsərin hər bir hissəsi ayrı-ayrı paraqraflardandan ibarətdir. Birinci hissə girişdən və 11 paraqraqfdan ("Dünya atlası", "Ərəbistan", "Misir", və. s.) ibarətdir. İkinci hissə isə 12 paraqrafdan və xatimədən ibarətdir. Xəzərətrafı xalqların tarixi ilə bağlı məlumatlar əsasən əsərin ikinci his-səsində verilmişdir. Buradakı 2 paraqrafda ("Ərminiyyə, Azərbaycan və Arran" və "Xəzər dənizi") verilmiş məlumatlara istinadən həm Azərbaycanın, həm də Xəzər xaqanlığının tarixi coğrafiyası, dövlətçiliyi, şəhərləri, əhalinin məşğuliyyəti və. s haqqında müəyyən fikirlər irəli sürmək olar (29, 331-357; 386-399). Əsərin birinci hissəsində Xəzər regionu ilə bağlı məlumatlar "Dünya atlası" adlanan paraqrafda verilmişdir (30, 5-17).

İbn Hövqəlin həyat və fəaliyyəti haqqında müfəssəl məlumat yoxdur (17, 198)

İbn Hövqəlin bu əsəri coğrafi üslubda yazılmışdır. Lakin buna baxmayaraq, müəl-lif lazım gəldikcə ictimai-siyasi hadisələrdən də bəhs edir, dövlətlər, hökmdarlar, əmrlər, görkəmli şəxslər, tacirlər və. s haqqında məlumatlar verir.

İbn Hövqəlin kitabında Azərbaycan və Arranla yanaşı digər Xəzərətrafı ərazilərin maraqlı coğrafi təsviri verilir. Onun Xəzər ölkəsi haqqında məlumatları müfəs-səldir və elmi baxımdan çox dəyərlidir.

**Xəzər ölkəsi və dövlətçiliyi haqqında.** İbn Hövqəl Xəzər dənizindən bəhs edərkən onun ətrafında məskunlaşmış xalqlar haqqında da müəyyən məlumatlar vermişdir. Əsərin "Xəzər dənizi" adlı paraqrafında Xəzər ətrafındakı ərazilərdən ümumi şəkildə bəhs edən müəllif onun qərb hissəsində Arran, Sərir, Xəzər ölkəsi və əl-Quziyyə çölünün bir hissəsinin yerləşdiyini göstərir (29, 386). Müəllif həmin paraqrafa daxil etdiyi "Xəzər dənizi" xəritəsinə (xəritə 1) şərh verərkən daha dəqiq və dəyərli məlumatlar verir. Belə ki, o Xəzər dənizinin ətrafındakı ölkələrin şimal-dan cənuba doğru təsvirini verir. Marqalıdır ki o, bu zaman Arran və Şirvan ərazilərinin məhz Azərbaycanın tərkibində olduğuna işarə edir. Müəllif təsvirinə diqqət yetirək: و كتب موازيأ لساحل البحر الأعلى الغزية ثم يلى نلك موازيأ للساحل الخزر ثم اذربيجان ثم الجيل ثم طبرستان.

Tərcüməsi: "Dənizin yuxarı hissəsində sahilboyu "əl-Quziyyə" yazılmışdır, onun ardınca isə sahilboyu əl-Xəzər, Azərbaycan, Cil, Təbəristan gəlir (29, 386).

Xəritəyə (29, 387) diqqətlə baxdıqda məlum olur ki, Dərbəndə qədər Xəzər ölkə-sini sərhədləri, Dərbənddən Cilin (Gilanın) sərhəddindəki Simranadək isə Azər-baycan ölkəsinin sərhədləri uzanır. Bu xəritədə Bab əl-Əbvab (Dərbənd) ərazisi Xəzər ölkəsinin deyil, məhz Azərbaycanın tərkibində göstərilmişdir.

Bundan sonra Xəzərlər ölkəsinin şərhinə başlayan İbn Hövqəl "Xəzər ölkəsi" hüdudlarında İtil, Xəzər və Sərir nahiyyələrini xüsusi olaraq qeyd edir (29, 386). Lakin o,

bəzən Sərirdən ayrıca bir "məmləkət" kimi bəhs edir. Xəzər nahiyyəsinin adı həm də bütün Xəzər ölkəsinə şamil edilir.

İbn Hövqəl yazır ki, Xəzər mərkəzi İtil (İbn Hövqəl onu "Ətul" şəklində yaz-mışdır) olan ölkənin adıdır. İtil isə öz adını Xəzər dənizinə tökülən eyni adlı çaydan götürmüşdür (29, 389). Müəllif İtil şəhərinin ərazisini İtil çayının Xəzər dənizinə töküldüyü yerdə, onun şərq hissəsində (sağ sahilində) göstərmişdir.

Ümumiyyətlə, müəllif Xəzər ölkəsi və Xəzər nahiyyəsindən, eləcə də İtil şəhərin-dən bəhs edərkən müəyyən dolaşıqlığa yol verir.

İbn Hövqəl yazır ki, Xəzərlərin hökmdarı yəhudidir. Onun ətrafındakı yaxın adamlarının sayı 4 min nəfərdir (29, 390). Müəllif qeyd edir ki, ölkə əhalisinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, hökmdar və onun yaxın ətrafı yəhudi dinini qəbul etmişdir. Lakin onlarda əhalinin davranışları, əxlaqı əsas etibarı ilə bütpərəstlərdə olduğu kimidir. Onlar bir-biri ilə qarşılaşanda qədimdə bütpərəstlərin etdiyi kimi bir-birilərinə səcdə edirlər. Bu isə İslam, xristian və yəhudi dinlərində mövcud olan şəriət normalarına ziddir (29, 390).

Xəzər xaqanı tərəfindən yəhudi dininin rəsmi din elan edilməsinə baxmayaraq, yəhudilərin sayı müsəlmanlar və xristianların sayından az idi. Odur ki, xaqan onlarla hesablaşmaq məcburiyyətində qalırdı. Bu faktı İbn Hövqəllə yanaşı digər ərəb mənbələri də təsdiq edir. Məsələn, Məsudi yazır: "Əgər müsəlmanlarla xristianlar əlbir olarsa hökmdar onlara müqavimət göstərə bilməzdi" (28, 177)

İbn Hövqələ görə Xəzər xaqanlığında idarəetmə aşağıdakı kimi olmuşdur. Bütün Xəzər nahiyyələrinin başında hökmdarların "ən böyüyü sayılan" və "Xəzər Xaqanı" adlanan hökmdar dururdu. Bütün ölkənin idarəsi onun əlində idi. Əgər hər hansı bir ərazinin hakimi vəfat etsə onun yerinə yenisi xaqanın özü tərəfindən təyin edilirdi. Xaqan yeni hakimi onun vəzifələri ilə tanış edir və ona and içdirirdi. Xaqan bildirirdi ki, hər hansı bir nahiyyənin hakimi vəzifələrini layiqincə yerinə yetirməsə günahkar hesab olunacaq və ağır şəkildə cəzalandırılacaq (29, 395).

Xaqanın hakimiyyəti mütləq idi. Xaqanın hüzuruna daxil olan hər bir şəxs diz çö-kərək təzim etməli idi və yalnız xaqan icazə verdikdən sonra qalxıb əyləşə bilərdi.

Xəzərlərdə xaqan seçilirdi. Xəzərlərdə xaqanın seçilməsi adətən məşhur bir ailənin (sülalənin) və xüsusi qrupun ixtiyarında olurdu. O, xaqanlardan bəziləri varlı, bəziləri isə yoxsul ailələrdən olmuşdur. Lakin yoxsul ailədən olasa belə xaqan seçildikdən sonra hamı ona yalnız hökmdar kimi ehtiram göstərirdi. Vəfat etmiş xaqanın qəbrinin yaxınılğından yalnız baş əyərək piyada keçmək olardı və oradan uzaqlaşmadan ata minmək olmazdı. Xaqan o qədər möhtərəm sayılırdı ki, əgər o, hər hansı bir vəzifəli şəxsə özünü öldürməyi əmr etsə həmin şəxs bu əmri itaətlə yerinə yetirirdi (29, 395).

Xaqanın sarayı bütün binalardan hündür olur və daha yüksəkdə yerləşirdi. Xaqanın taxtı üzərində qızıla boyanmış qübbə olurdu (29, 396).

İbn Hövqəl yazır ki, onlarda xüsusi maaş alan daimi qoşunun sayı 12 min nəfərdir. Əgər onlardan biri vəfat edərsə yerinə yenisi təyin edilirdi. Lakin bu qoşunun daimi yerləşmə yeri yox idi (29, 390).

İbn Hövqəl Xəzər xaqanının gəlir mənbələri haqqında da məlumat vermişdir. Xəzər hökmdarının gəlirləri əsasən, keçid məntəqələrindən və ticarətlə məşğul olan əhalidən alınan vergilərdən ələdə edilirdi. Bundan başqa bütün təbəqələrdən olan əhali onun yaşayışı üçün lazım olan ərzağı tədarük etməli idi.

Hökmdarın yəhudilərdən, xristianlardan, müsəlmanlardan və bütpərəstlərdən iba-rət yeddi xüsusi hakimi (qazısı) var idi. Əgər əsilzadələrlə və sadə xalqala bağlı hər hansı bir

hadisə baş verərsə həmin qazılar hökm verirdilər. Ehtiyacı olanların və şikayətçilərin birbaşa xaqana müraciət etmək hüququ yox idi. Belə ki, əhali həmin hakimlərə müraciət etməli idi. Həmin hakimlərlə xaqan arasında isə xüsusi nümayəndə (hacib) vasitəçilik edirdi. Xüsusi nümayəndə müraciətəri xaqana çatdı-rırdı. Yalnız bundan sonra hacib xaqanın qərarını qazılara bildirirdi (29, 390).

İbn Hövqəl yazır ki, ölkənin İtil adlanan şərq hissəsinin öz yerli hökmdarı var və əhali onu öz dillərində "bək" ("bəy") adlandırır (29, 390). Zənnimizcə, bu bir növ ikihakimiyyətlilikdən xəbər verir. Belə ki, siyasi hakimiyyət əsasən xaqanın, hərbi hakimiyyət isə bəyin əlində cəmlənmişdi. Bu türk xalqlarında mövcud olmuş hərbi demokratiya sisteminin təzahürü idi.

İbn Hövqəlin xaqanala bağlı verdiyi bir məlumat xüsusilə, maraqlıdır. O yazır ki, əgər təhlükəli bir hadisə və yaxud müharibə baş verərsə xaqanı elə bir yerə aparır-lar ki, qonşuluqda yaşayan türklərdən heç kəs onu görə bilməsin (29, 395). Bura-dan belə nəticəyə gəlmək olar ki, müəllif xəzərləri ətraf ərazilərdəki digər türk tayfalarından fərqləndirir. Ümumiyyətlə, İbn Hövqəl xəzərlərin etnik mənsubiyyəti ilə bağlı məsələdə qətiyyətli deyil. Digər ərəb müəllifləri də xəzərləri başqa türk xalqlarından fərqləndirir. Belə ki Ət-Təbəri xəzərlər və türklər anlayışından dəfə-lərlə ayrı-ayrılıqda bəhs etmişdir (20, 101-128). Digər ərəb müəllifi Dinəvərinin əsərində də belə hallara rast gəlinir (25, 2)

Ümumiyyətlə, yazılı mənbələrin, eləcə də Azərbaycanın və Xəzər xaqanlığını VII-IX əsrlər tarixi ilə bağlı olan elmi ədəbiyyatın araşdırılması göstərir ki, xəzərlərin etnik mənsubiyyəti, onların Qafqaz bölgəsinə gəlməsi ilə bağlı məsələ-lərdə yekdil fikir yoxdur. Ziya Bünyadova görə, "Xəzər xaqanlığının tərkibində türkdilli tayfalar böyük yer tuturdular, xəzərlərin özləri də, yaqin ayrıca bir türk qrupuna mənsub idilər (1, 172).

Ərəb yazılı mənbələrinin əksəriyyəti xəzərləri türkdilli xalqlar sırasına aid edirlər.

İbn əl-Fakihin əsərində belə bir məlumata rast gəlirik: "Türklər Kufəni, xəzərlər əl-Cəzirəni, bizanslılar isə Şamı ələ keçirəcəklər" (22, 23). Göründüyü kimi, bura-da müəllif xəzərləri digər türk xalqlarından fərqləndirir.

Bəzi ərəb müəllifləri xəzərlərlə yanaşı sabir türklərindən də bəhs edir və onları eyniləşdirirlər. Məsələn, Məsudiyə görə xəzərlərə türk dilində "sabirlər", fars dilində "xəzaran" (xəzərlər) deyirlər (28, 74). Bir sıra tədqiqatçılara görə sabirlər və xəzərlər ayrı-ayrı xalqlar olmuş, sonralar isə sabirlər xəzrlərin arasında əriyib yox olmuşlar.

Ümumiyyətlə, müxtəlif ərəbdilli müəlliflərin əsərlərində verilən məlumatlardan belə nəticəyə gəlmək olar ki, onların əksəriyyəti xəzərləri türk tayfaları sırasına aid edir. Lakin onları ümumi şəkildə "türklər" adı altında təqdim edilən xalqlardan fərqləndirirlər. Bu fakta xüsusi diqqət yetirmək lazımdır. Yalnız belə olan halda ərəb istilaları zamanı Azərbaycan torpaqlarında ərəblərə qarşı uzun müddət vuru-şan və ümumi şəkildə "türklər" adı altında təqdim edilən etnoslarla xəzərlər arası-nda fərqi müəyyən etmək mümkündür.

Erkən orta əsrlərdə yazılmış erməni və Bizans mənbələri də xəzərləri türkdilli xalqlar sırasına aid edirlər. Onların verdiyi məlumatlara görə xəzərlər III əsrdən başlayaraq Cənubi Qafqaz daxil olmuşlar (19, 562-563).

Xəzərlərin mənşəyi ilə bağlı məsələyə aydınlıq gətirmək üçün Xəzər xaqanı Yasəfin (Yusifin) X əsrdə Kordova xəlifəsinin yəhudi mənşəli vəzirinə yazdığı ca-vab məktubunu xatırlatmaq doğru olardı. Həmin məktubun məzmunu xəzərlərin etnik mənsubiyyətinə həsr olunmuşdur. Xaqan həmin məktubda öz xalqının mənşəyinə işarə edərək bildirir ki, xəzərlər,

hunlar, basillər, uyğurlar, avarlar və bulğarlar hamısı bir kökdən olmaqla türk xalqlarındandır (18, 89; 19, 561).

**Şəhərlər və onlar arasındakı məsafələr:** İbn Hövqəl Xəzər xaqanlığının ərazisindəki şəhərlər, ticarət əlaqələri və ticarət yolları haqqında bir sıra dəyərli məlumatlar vermişdir. Onun verdiyi bu məlumatlar Xəzər xaqanlığında şəhərlərin rolu, onların daxili həyatı, quruluşu haqqında müəyyən fikirlər söyləməyə imkan verir. İbn Hövqəlin verdiyi məlumatlara görə, Abeskundan Xəzər ölkəsinə qədər yaşayış məntəqələri sıxdır. Yalnız Dərbəndlə Xəzər ölkəsi arasındakı ərazidə əhali-nin sıxlığı çox azdır. Dərbənddən Səməndərədək 4 günlük, Səməndərdən İtilədək 7 günlük məsafədir (29, 389).

Xəzərlərdə şəhərlər az idi. İbn Hövqəl ölkənin başlıca şəhərləri olan İtil, Xəzər və Səməndər şəhərlərindən daha çox bəhs edir.

İbn Hövqəl 723-cü ilədək xaqanlığın paytaxtı olmuş Bələncər haqqında demək olar ki, məlumat vermir. O, 723-cü ildən xaqanlığın paytaxtı olan Səməndər, və 750-ci ildən paytaxta çevrilən İtil şəhərləri haqqında daha geniş məlumat verir.

O, İtil şəhərində evlərin çox olmasından, onların əsasən çadırlar şəklində çubuqlardan qurulmasından, bir hissəsinin isə gildən tiklməsini yazır. Şəhərdə bazarlar və hamamlar var idi (29, 390). Burada çoxsaylı məscidlər inşa edilmişdi. Şəhərin şərq hissəsində məskən salan hökmdarın sarayı çaydan aralı idi və kərpicdən inşa edilmişdir. Burada yalnız hökmdarın sayaryı kərpicdən idi və hökmdar digər şəxs-lərə kərpicdən ev tikməyə icazə vermirdi (29, 390).

İbn Hövqəlin verdiyi məlumata görə İtil müxtəlif dinlərin nümayəndələrinin bilikdə yaşadığı və ticarət etdiyi bir şəhər idi. Burada müsəlman məscidləri, xristi-an kilsələri və yəhudi məbədləri bir-birinin yaxınlığında yerləşirdi (29,390).

İbn Hövqələ görə İtil şəhərinin qala divarlarının dörd darvazası var idi. Lakin müəllif onlardan yalnız ikisi haqında bəhs edir. Onlardan biri çaya, digəri isə şəhə-rin arxa tərəfindəki çöl əraziyə açılırdı.

Xəzər ölkəsindəki şəhərlərdən biri də Səməndər şəhəri idi. İbn Hövqələ görə o, Xəzər şəhəri ilə Bab əl-Əbvab şəhəri arasında yerləşirdi (29, 393). Bu şəhər özü-nün çoxlu bağları və üzümlükləri ilə məşhur idi.

Səməndər şəhərinin əhalisi əsasən, müsəlmanlardan, müxtəlif millətlərin nümayəndələrindən və bütpərəstlərdən ibarət idi. Rusların gəlişindən sonra tənəzzülə uğrasa da bir neçə ildən sonra yenə də əvvəlki vəziyyətinə qayıtmışdı. Burada məscidlər, kilsələr və yəhudi məbədləri var idi.

İbn Hövqələ görə Xəzər ölkəsinin şəhərlərindən biri də Sərir şəhəri idi. Səmən-dərlə Sərir arasındakı məsafə 2 fərsəxə bərabər idi.

İbn Hövqəl əvvəlcə Xəzər ətrafındakı daha uzaq ərazilərdən Xəzər ölkəsinə qədər olan yollar haqqında ümumi şəkildə bəhs edir. Onun verdiyi məlumata görə, Abeskundan Xəzər ölkəsinə sağ tərəfdən (şərqdən şimala doğru) 300 fərsəx, sol tərəfdən (qərbdən şimala doğru) isə yenə də 300 fərsəxdir. Abeskundan Dehistana qədər təxminən 6 mənzillik (günlük) yoldur. Dəniz yolu ilə Təbəristandan Bab əl-Əbvaba qədər 1 həftəlik yoldur (29, 398).

Xəzər ölkəsinin şəhərləri arasındakı məsafə isə aşağıdakı kimi olmuşdur: İtildən Səməndərə qədər 8 günlük yol idi. Səməndərdən Bab əl-Əbvaba qədər 4 günlük yol idi. Sərirlə Bab əl-Əbvab arasındakı məsafə 3 günlük yol idi (29, 398)

İtildən şimala Burtasın sərhəddinə qədər 20 gün, Burtasın əvvəlindən axırına qədər 15 günlük yol idi. Burtasdan Biçənəyə qədər 10 günlük, İtildən Biçənəyə qədər 1 aylıq yol idi.

İtildən Bulğara qədər quru yolla 1 aya yaxın, dəniz yolu ilə isə 2 aya yaxın yol getmək lazım gəlirdi (29, 398)

Şəhərlər haqqında məlumat verən İbn Hövqəl yazır ki, Xəzər ölkəsində yaşayış məntəqələrinin sayı çox deyildi.

**Əhali və onun məşğuliyyəti:** İbn Hövqəl İtil şəhərində çoxlu müsəlman əhali-sinin yaşadığı barədə məlumat verir. Şəhərdə müsəlmanların sayının 10 min nəfər olduğu göstərilir. Burada 30 məscid var idi (29, 390). Ümümiyyətlə, əhali dini baxımdan müsəlmanlardan, xristianlardan, bütpərəstlərdən ibarət idi. Yəhudilərin sayı hamıdan az, müsəlmanların sayı isə hamıdan çox idi (29, 390).

Ümumiyyətlə, İbn Hövqəlin məlumatlarından belə qənaətə gəlmək olar ki, xəzər-lər bütpərəst-şamanist idilər. Sonralar onlar yəhudi, xristian və İslam dinlərini qəbul etmişdilər. Bu məlumatlardan belə qənaətə gəlmək olar ki, Xəzər xaqanlığı əvvəlcə, xristianlığın, sonra isə İslamın sürətlə yayıldığı bir dövrdə yəhudiliyin əsas siyasi dayağına çevrilmişdi.

Uzun müddət Xəzər dənizi ətrafında mühüm siyasi qüvvəyə çevrilən Xəzər Xa-qanlığı İslamın Dərbənddən şimala doğru yayılmasını əhəmiyyətli dərəcədə lən-gitmişdi. Başqa sözlə, digər türk tayfaları İslamın əsas daşıyıcılarına çevrildiyi bir vaxtda xəzər türkləri onların şimala doğru genişlənməsində başlıca maneyəyə çev-rilmişdi. Lakin əsasən bütpərəstlərdən və yəhudilərdən ibarət olan Xəzər xaqan-larının səylərinə baxmayaraq İslam tədricən Xəzər xaqanının hakimiyyəti altında olan ərazilərə də nüfuz etdi və xəzərlərin böyük bir hissəsi artıq VIII-IX əsrlərdə İslamı qəbul etdi. Onlar sonralar əsasən Azərbaycan və Volqaboyu türkləri ilə qaynayıb-qarışdılar və öz mənşələrini itirdilər.

Əhalinin dilindən bəhs edən İbn Hövqəlin məlimatları çox ziddiyyətlidir. O yazır: "Xəzər dili fars və türk dilindən fərqli dildir, digər millətlərin dili ilə bağlılığı yoxdur" (29, 393). Əl-İstəxri bu fikri bir qədər fərqli təqdim edir. O, yazır: "Xə-zərlərin dili türk dili kimidir və heç bir başqa xalqda bu dil yoxdur" (26, 179).

İbn Hövqəl yazır: " Xəzərlərin qonşuluğunda Burtas əhalisi yaşayır və onların dildində danışırlar. Xəzər, Burtas, Sərir və rus tayfa, xalq adı deyil, əksinə, ölkə nahiyyə adıdır (29, 394).

Xəzər əhalsi haqqında danışan İbn Hövqəl yazır ki, onlar zahirən türklərə oxşamırlar. Belə ki, xəzərlər əsasən qarayanızdırlar və 2 qrupa bölünürlər. Onlar-dan biri Qaraxəzər adalanır, çünki qarabudayıdırlar. Onalar bu baxımdan hindlilərə bənzəyirlər. Digər qrupa daxil olanlar isə ağ dərili və yaraşıqlıdırlar (29, 394).

Xəzərlərdə qullar adətən bütpərəstlərdən olurdu. Çünki, bütpərəstlərdə xristian-lardan və yəhudilərdən fərqli olaraq, uşaqlarını satmaq və bir-birini qula çevirmək adəti mövcud idi (29, 394).

Xəzər xaqanlığının əhalisi əsasən maldarlıq, əlinçilik, balıqçılıqla, qismən də sənətkarlıqla məşğul olurdu. Onların özlərinin əsas yeyinti məhsullarının düyü və balıq olduğunu söyləmək mümkündür. Bununla yanaşı taxıl məhsulları da becə-rirdilər. Onların həyatında ovçuluq mühüm yer tuturdu.

Xəzər xaqanlığının ərazisi əsasən Xəzər dənizi və Volqa çayı ətrafında yerləş-diyinə görə burada dəniz yolu ilə ticarət mühüm yer tuturdu. Xəzər ölkəsinin şəhərləri şimaldan cənuba və əksinə gedən ticarət yolları üzərində xüsusi rol oynayan mühüm yaşayış məntəqələri idi. Bu şəhərlər həm də liman şəhərləri idi. Xəzər dənizində müsəlman ölkələri ilə Xəzər ölkəsi arasında ticarəti həyata keçirən ticarət gəmiləri üzürdü (29, 388).

Xəzər xaqanlığının əhalisi əkinçiliklə də məşğul olurdu. Təkcə kənd əhalisi deyil, şəhər əhalisi də əkinçilklə məşğul olurdu. Şəhərlərin ətrafında çoxlu əkin tarlaları, bağlar və

üzümlüklər var idi. Şəhərdə yaşayan əhali yaz və yay mövsümündə şə-hər ətrafındakı tarlalara gedir, təsərrüfat işləri ilə məşğul olurdular (29, 391). Onlar əsasən düyü və balıq məhsulları istehsal edirdilər. Onlar rus və bulğarlardan mum, bal, kürk alırldrılar. Buraya yalnız bulğarlarda və ruslarda olan xüsusi xəz dəri gətirilirdi (29, 392). İbn Hövqəl yazır ki, bulğar və xəzərlər ruslar tərəfindən məğ-lub edilənə qədər ticarət əlaqələrində vəziyyət bu şəkildə qalmaqda idi.

Xəzərlər digər yerlərə balıq məhsullarından başqa heç nə aparmırdılar. Onlara geyim paltarları adətən Curcan, Təbəristan, Azərbaycan, Xarəzm, Rum (Bizans) və diğər qonşu ərazilərdən gətirilirdi (29, 395).

Əhali arsında sənətkarlıq da inkişaf etmişdi. Lakin müəllif bu barədə geniş məlu-mat vermir və sənət məhsullarının əsasən kənardan gətirildiyini yazır.

Xəzər xaqanlığı əhalisinin böyük bir hissəsi maldarlıq və ovçuluqla məşğul olur-du. Volqa çayı və Xəzər dənizi ətrafındakı ərazilərdə balıq ovu geniş yayılmışdı.

Beləliklə, məşhur ərəb coğrafiyaçısı İbn Hövqəlin "Kitab surət əl-ard" əsəri xəzər xaqanlığı tarixinin müxtəlif məsələlərini öyrənmək baxımında mühüm mənbə-lərdən biridir. Gələcəkdə bu əsərin tədqiqatının davam etdirilməsi yeni faktların meydana çıxmasına və bununla da həm Azərbaycan tarixinin, həm də Xəzər xaqanlığının tarixinin daha dərindən öyrənilməsinə imkan verə bilər

## İSTIFADƏ OLUNMUŞ MƏNBƏLƏR VƏ ƏDƏBIYYAT

1. Bünyadov Z. M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Elm, 1989, 334 s.
2. Şərifli M. X. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: Elm, 1978, 334 s.
3. Vəlixanlı N. M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974, 220 s.
4. Ramazan Şeşen. Muslimanlarda tarih-coğrafiya yazıcılığı. İstanbul: İSAR, 1998, 451 s.
5. سفرنامه ابن حوقل. ترجمه جعفر شعار. تهران 1363.
6. Ramazan Şeşen. İslam coğrafiyaçılarına göre Türkler. Ankara: İSAR, 1985, 269 s, s. 162-173.
7. Буниятов З. М. Обзор источников по истории Азербайджана ( Источники арабские). Баку: Изд-ва АН Азерб. ССР, 1964, 36 с.
8. Ашурбейли С. Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку: Элм, 1983, 344 с.
9. Vəlixanlı N. M. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.
10. Vəlixanlı N. M. Xilafətin Azərbaycanda inzibati siyasəti, idarəetmə sistemi və köçürmə siyasəti. – Azərbaycan tarixi. 7 cilddə. II cild. Bakı: Elm, 2007, 596 s. s. 178-186.
11. Vəlixanlı N. M. Naxçıvan – Ərəblərdən monqollaradək (VII-XII əsrlər). Bakı: 2005, 151 s.
12. Велиханова Н. М. Изменение исторической географии Азербайджана в результате арабского завоевания. – Историческая география Азербайджана на. Баку: 1987, 148 с, с. 47-87.

13. Azərbaycan tarixi. Yeddi clddə. II cild (III-XIII əsrin birinci rübü). Bakı: Elm, 2007, 608 s.
14. Жузе П. К.Биографии арабских географов и историков писавших об Азербайджане. Azərbaycan MEA-nın A. Bakıxanov adına Tarix İnstitutunun elmi arxivi, inv. 495.
15. Ибн-Хаукалъ. Книга путей и царств . Перев. Н. А. Караулова. СМОМПК, вып. XXXVIII. Тифлис: 1908, с. 7-118.
16. Колесников А. И. Завоевание Ирана арабами. Москва: Наука,1982, 270 с.
17. Крачковский И. Ю. Арабская географическая литература. Изб. сочинения. В 7-ми томах, т. IV. М – Л: Наука, 1957, 919 с, с. 20-21.

18. آرتو كاسلر. جزران. ترجمة دكتر محمد علي موحد. تهران. 1361.

19. رحيم ريس نيا. آذربايجان در سير تاريخ ايران. بخش اول. تبريز1368.
20. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə dair materiallar. Bakı: Nurlan, 2005, 335 s.
21. Артаманов М. И. История Хазар. СРбГУ, 2002
22. Асадов Ф.М. Арабские источники о тюрках в раннее средневековье. Баку: Элм, 1993, 202 с.
23. Ахундова Н.Ч. Тюрки в системе государственного управления арабского халифата (VIII-сер. X вв.). Баку: «Элм», 2004, 374с.
24. Шамыева Х.Р. Хазаро-арабские войны в VIII столетие и Азербайджан // актуальные проблемы истории Кавказа (Материалы международной конференции, посвященной 100-летию со дня рождения профессора Р.М.Магомедова). Махачкала, 14-15 апреля, 2010, с.163-164.

25. الأخبار الطوال تأليف ابى حنيفة أحمد بن داود الذينورى. الطبعة الأول. القاهرة.1960
26. المسالك و الممالك تأليف ابى اسهق ابراهيم بن محمد الفارسى الأصطخرى القاهرة .1381

27. الطري-تاريخ الرسل و الملوك. اثنا عشر جزع. القاهرة. المطبعة الحسينية

28. ال مسعودي- مروج الذهب. ألطبهة المصرية. سنة 1303.

29. كتاب صورة الأرض تاليف ابي القسم ابن حوقل النصيبى الطبعة الثانية. القسم الثانى. طبع فى مدينة ليدن بمطبعة بريل سنة 1939

30. كتاب صورة الآرض تاليف ابى القسيم ابن حوقل النصيبى الطبعة الثانية . القسم الآول. طبع فى مدينة ليدن بمطبعة بريل سنة.1967

[بحر الخزر]

(١) وبحر الخزر فإنّ شرقيّه بعض الديلم وطبرستان وجرجان وبعض المفازة التى بين جرجان وخوارزم وغربيّه الرّان وحدود السّرير وبلاد الخزر وبعض مفازة الغزّية وشماله مفازة الغزّية بناحية سياهكوه وجنوبه الجبل والديلم وما دالى ذلك ،

(٢) وهذه صورة بحر الخزر

[١٠٥ ظ]

إيضاح ما يوجد فى صورة بحر الخزر من الأسماء والنصوص ،

قد رُسم البحر على شكل دائرة فى وسط الصورة ورُسم من أعلاه جبل لا اسم عنه وهو بين كلمتى كتابة بحر الخزر، وكُتب موازيًا لساحل البحر الأعلى الغزيه ثمّ على ذلك موازيًا للساحل الخزر ثمّ اذربيجان ثمّ الجبل ثمّ طبرستان، ويصبّ فى البحر آخذاً عن اليسار نهر رُسم على شاطئه الأعلى مدينة اتل وعلى الشاطئ الأسفل خزران، وكُتب فى الساحة من أسفل ذلك نواحى السرير، ثمّ تقع على ساحل البحر مدينة الباب وعن يسارها الى الأسفل برذعه، ثمّ يصبّ فى البحر عن يمين ذلك نهران هما نهر الكر ونهر الرس وعلى نهر الرس مدينة ورثان ثمّ عن يمين مصبّ هذا النهر على ساحل البحر موقان، ويليها على بُعد من ساحل البحر مدينة ميمران، ثمّ يلى ذلك على الساحل من المدن شالوس، عين الهم، ابسكون، وعن يمين ذلك فى البرّ جرجان،

ورُسم فى البحر جزيرتان هما جزيرة سياه كوه وجزيرة باب الأبواب، ومن أسفل البحر فى أيمن الصورة سلسلة جبال كُتب عندها جبال الديلم،

* ٥ (دالى) — (دنا)، ١١ (اذربيجان) — (اذبيجان)، ١٥ (ورثان) — (ورمان)، ١٧ (شالوس) — (سالوس)،




صورة بحر الخزر التى فى الصفحة ١٠٥ ظ من الأصل،

Tarix və onun problemləri, № 2 2014

R.E.AGAYEV

## IBN HOVQAL'S "KITAB SURAT AL-ARD" ("THE BOOK OF EARTH'S DESCRIPTION") ABOUT THE KHAZARS

Most available and reliable information about the Khazars comes from Arabic, Hebrew, and Byzantine sources.

The paper deals with the information about the Khazars that is given by the X century famous Arab traveler and geographer Ibn Hovqal in his book "Kitab Surat al-ard" ("The book of Earth's description").

Despite Ibn Hovqal's work was written in geographical style, in necessary cases it provides us with the information about the socio-political events, states, rulers, emirs etc.

In his work he gives detailed information about the borders, cities, population, trade, roads, markets etc.

Thus, grounding on the researches we can conclude that the X century famous Arab traveler and geographer Ibn Hovqal's "Kitab Surat al-ard" is one of the most significant sources for studying the history of Khazar khaganate. In future researches on this work, new facts on the history of Khazars can be found, and thus the Khazaria history can be studied more thoroughly.

Р.Э.АГАЕВ

## ТРУД ИБН ХАУКАЛЯ «КНИГА ОБ ОПИСАНИИ ЗЕМЛИ» О ХАЗАРАХ

Большая часть доступной информации о хазарах пришла из арабских, еврейских и византийских источников.

В статье рассматриваются и анализируются сведения о хазарах известного арабского путешественника и географа Ибн-Хаукаля (жившего в X веке), представленные им в труде «Китаб сурат ал-ард» («Книга об описании Земли»).

Данный труд Ибн-Хаукаля носит географический характер. Но несмотря на это обстоятельство, автор книги в необходимых случаях также представляет нам сведения о социально-политических событиях, государствах, правителях, об эмирах, о знаменитых людях, торговцах.

В указанном труде путешественника-географа представлены обстоятельные сведения о границах Хазарского каганата, о городах, населении, торговли, торговых путях, базарах.

В результате исследования автор представленной статьи пришел к такому выводу, что труд известного арабского путешественника и географа Ибн-Хаукаля «Китаб сурат ал-ард» является одной из самых значительных первоисточников для изучения истории Хазарского каганата в VII-IX вв. Считаем, что последующие исследования этого труда выявят новые факты и таким образом появятся новые возможности в деле углубленного изучения отечественной истории.

***Rəyçilər:* *t.ü.f.d. D Əzimli, t.e.d. İ.Məmmədov***

***AMEA-nın A.Bakıxanov adına Tarix institutunun "Azərbaycanın Orta əsrlər tarixi" şöbəsinin 17 yanvar 2014-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №1).***